# Azərbaycan xalqının səlahiyyətdar şəxslərinin konfransındakı etdiyi bəyanat

Əziz və möhtərəm həmvətənlər! Əsl mövzüya başlamadan əvvəl icazə istəyirəm bir qədər mövcud vəziyyətimizin keçmişi və onu icad edən səbəblər barəsində tövzih verəm.

Hamız bilirsiz ki, firqəmiz 12 şəharivərdə müntəşir etdiyi 12 maddədn ibart olan tarixi bəyannamədə biz sərih və aşkar bir surətdə «İran daxilində İranın istiqlal və təmamiyyət ərzisini mura'at etmək şərtilə öz daxili işlərimizi öz əlimizə almaq və öz evimizi öz iradəmizilə idarə etmək, öz anadilimizdə milli fərhəngimizi mütərəqqi və mü'asır hala salmaq» tələbatını ortaya sürmüşdük. Həmvətənlər müharibəsi və süitəfahümlərə yol vərəməmək üçün İran qanun əsasısına istinadən istədiklərimizi əyalət və vilayət əncümənləri vasitəsilə əldə etmək, qansız və də’vasız olaraq sülh və təbliğat yolilə bu məqsədə nayil olmağa çalışdığımızı da o gündən e’tibarən ciddi surətdə təbliğ etməyə başlamışdıq. İllər boyu təhqir, tövhin və əsarətə məhkum olan xalqımız firqəmizin bu şuarını açıq urək və ali ruh ilə istiqbal edib sel kimi onun sıralarına axmağa başladığı halda Tehran irtica’i hököməti və ümumiyyətlə xalqın əsarətini özü üçün səadət və şan - şövkət sayan alçaq və xayin dövlət mə'murları mürtəce, müstəbid və xudxah ünsürlərilə səs - səsə verib bizim bu sadə və təbi’i sədamızı boğmaq və ışıqlandırdığımız azadlıq məş’əlini söndürmək üçün dünyanı gurultu ilə doldurmağa qiyam etdilər. Bildigiz kimi vətənimizin mərkəzi Təbriz şəhərində başlanan azadlıq sədası onların çığır - bağırına və iftira-amiz sözlərinə baxmayaraq çox səri' bir surətdə əvvəl İran daxilində, sonra da bütün dünyada mün'əkis olmağa başladı. Hər bir tazalıq və hər bir mütərəqqi işi özünün məhv və izmehlalı hesab edən İran heyəti hakiməsi isə xalqımızın qanunı və məşəru tələbatını tə’min etmək əvəzində və ona əlində olan dövlət təşkilatı vasitəsilə azadlıq əvəzində əsarət, ixtiyar və haqq və ədalət əvəzində, şallaq, həbs, təb`id və fəci'anə qətl və qarətilə cəvab verdi.

Hənuz Şəhrivər ayı qurtarmamışdı ki, kəndlərimizdə jandarm və şəhərlərimizdə polis və nizamı qüvvələrinə demokrat firqəsini silah gücüilə dağıdıb onun başçılarını tövqif və məhv etmək əmri verildi. Bununla bütün azərbaycanı vəhşət və iztirab bürüdü. Məxsusən kənd əhalisinin malı, canı, heysiyyət və namusu tamahkar oğru və Rizaxan rejiminin ən kəsif, ən nacins və ən murdar məhsulu olan jandarm mə’murlarının ixtiyarına tapşırıldı. Bu tərıqilə Azərbaycan xalqının şədid və ciddi mübarizəsi başlandı. İş firqə və təşkilat çərçivəsindən xarıc olub ümumiyyət şəkili aldı. El özünü zülüm və əsarət çəngalından xılas etməyə başladı. Azərbaycanlı bu işi çoxdan arzu edirdi, onun səbir və təhəmmül kasası ləbəriz olmuşdu, o Tehrandan ciblərini doldurmaq üçün göndərilən leşgəri və keşvəri mə’murların xəyanət, təhqir və tövhinlərinə xatimə vermək üçün elə bir günün gəlib çatmasını illər boyu arzu etmişdi, hətta bu arzu, tək Azərbaycan deyil, bütün İran millətinin ürəyəni illər boyu əzib yoran ağır vəli müqəddəs bir dərd idi. İndi də bütün İran xalqı bu dərdin davası umudu ilə yaşamaqdadırlar. Azərbaycan xalqı bu arzunu yaxından hiss etməkdə idi. O,

artıq özünə ciddi nüqteyi ittika tapıb öz milli firqəsini vicuda gətirmişdi. O çox gözəl bir surətdə hiss etmişdi ki, onun möhkəm bir mərkəzi, təzəlzülnapəzir bir başı vardır. Bu mərkəz və bu baş, firqəmizdən ibarət idi. Duşmənlərimiz hətta dostlarımızın çoxu bizim ıldırım sürə'ti ilə irəli gedib böyük bir qüdrət kəsb etməyimizin illət və səbəblərini bilməyə hənuz qadır ola bilməmişdir. Halbuki, bu çox sadə və aydın bir məsələdir. Bizim müvəffəqiyyətimizi tə'min edən həmin xalqımızın illərlə bəslədiyi müqəddəs amal və arzularını pak vicdan və səmim qəlbilə həyata keçirmək istədiyimizdir. Buna görə də irtica'i dövlət və mürtəce ünsürlərin əleyhimizə başladıqları vəhşiyana həmləyə xalqımız qəhrəmananə bir hərəkətilə cavab verdi, anaların göz yaşları, qızların namusu, cavanların qanı bahasına ağalıq edən jandarm və sayir cəlladlar əvvəl kəndlər və sonra şəhərlərimizdən kənar edildi, xalq özü öz sərniviştinə hakım olmaq iste'dadını bu vasitəilə sübuta yetirdi. Kəndlərdən cəlladları ixrac edib, şəhərlərdən oğuru, kəsif və mürtəce mə'murları qovub çıxarmaq kifayət etmirdi. Xalqı idarə etmək, çürümüş dövlət təşkilatı əvəzində xalqın ehtiyacatını tə'min edib ümumun arzularını həyata keçirə bilən bir təşkilat vicuda gətirmək də lazım idi. Bu iş təbi'i bir surətdə meydana çıxdı, xalq konfranslarında yüzminlər ilə imzaya malık olan qərarlar Tehrana müntəzır olmadan milli azadlığı tə'min edən Muxtariyyət və Milli Hökümət təşkilatı tələb edən təsmimnamələr, sel kimi axıb Təbrizə gəldi, firqəmiz isə xalqımızın ruhundan qopan bu böyük səsə biqeyd qala bilməz və xalqı öz halına qoya bilməzdi. Onagörə çox səri' bir surətdə xalq konfranslarının arzularını əməli etmək və xalqın səsini təmərküz vermək üçün aban ayının iyirmi doqquzunda Təbriz şəhərində özünü Müəssislər Məclisi adlandırıb Milli Hökümətimizin əsasını qoydu, Milli Məclisimizin fövriyyətlə çağırılması qərarını çıxardı və bu qərarı həyata keçirmək üçün milli bir heyə't intixab etdi və özünün böyük və tarixi e'lamiyyəsini İran məclisinə və xarici dövlətlərin nümayəndələrinə göndərməklə özünün qanuni və məşru' olan daxili hökümətini vicuda gətirəcəyini və bu yolda Tehran höküməti ilə danışığa hazır olduğunu e'lan etdi. Bu e`lamiyyədən sonra Tehran höküməti tərəfindən zahirən böyük ixtiyaratilə ustandar tə'yin olunan aqayi Bəyat ilə milli heyə'timizin nümayəndələri arasında bizim tələbatımızı tə'min etəmk mövzüsündə müzakirə başlandı. Bu müzakirə indiki müzakirəmizin müqddiməsi hesab oluna bilər. Aqayi Bəyat əncüməni əyaləti və vilayti ilə müvafiq olduğunu söylədi, lakin onun məclis şurayi milli tərəfindən təsvibini irəli sürüb bizə aydın bir cavab verəbilmədi. Biz ondan azadlığımızın mühafizə edilməsi və əncümənlərin fəaliyyətinin dəvamı üçün tə'min istədik, o isə belə bir tə'min verəmyə qadır ola bilməzdi. Ona görə Tehran ilə danışığımız nəticəsiz qaldı. Bildiyiniz kimi Məclisi Millimiz və Milli Hökümətimizin təşkili ilə aqayi Bəyatın artıq Azərbaycanda görəcək bir işi olmadığı üçün Tehrana müraciət etdi. Bəyat ilə aparılan müzakirə bizə isbat etdi ki, Tehran irtica'i höküməti bizim arzularımızı tə'min etməyə heç vəchilə imkan verməyəcəkdir. Onun tək - tək mə'murları istəsələr belə, bu iş əməli deyildir.

Ona görə biz öz milli qüdrətimizə istinadən 21 Azər də Milli Məclis və Milli Hökümətimizi qurub azad bir surətdə işə başladıq. Mən Milli Hökümətimiz və Milli Məclisimizin təşkili zamanı xalqın ibraz etdiyi ehsasat və hərarətdən bəhs etmək istəmirəm. Fəqət deyəbilərəm ki, o gün bütün xalq - istər şəhərlər, istər isə kəndlərimiz də ayağa qalxmışdı, tam

mə'nasilə nehzəti ümumı, tam mə'nasilə milli qiyam və milli hərəkət vicuda gəlmişdi. 21 Azərdən indiyə qədər təqribən 5 ay keçir. Bu az müddətdə hökümətimiz, firqə və Məclisi Milli və xalqımızın hüsnü təvəccehinə dayanaraq böyük işlər görmüş və əsası islahata başlamış və bu vasitə ilə xalqımızı ayaqlandırıb, gələcək səadətmənd bir həyata ümidvar etmişdir. Xalisə yerlərin kəndlilər arasında bilaəvəz bölünməsi karxanalarımızın ciddi surətdə işəsalınması, işsizlik ilə şədidən mübarizə, şəhərlərimizin abadlanması, milli azadlığımız və vətənin əmniyyətini saxlamaq üçün təşkil tapan fədai dəstəlrinin nizama salınması, nəhayət azadlığımızın dayağı olan milli qoşunun iki ay müddətində yaradılması mövcüzəsi, həmçinin fərhəng, behdaşt və ticarətin tərqqisi və bazarın suqutunun qabağı alınması kimi götürülən qədəmlər millətimizin özünü idarə etməyə layiq olduğunu isbat etmişdir. Məncə bunların hamısından əhəmiyyətli xalqımız və hökümətimiz və firqəmizin əfradı arasında vicuda gələn möhkəm iman və qırılmaz birlikdir. Xalqımızın rəhbərləri arasında muşahidə olunan möhkəm birlik məncə bunların hamısından artıq millətimizin iste'dadını isbat etməkdedir. Xalqımız bu böyük müvəffəqiyyətlər və iste'dadları sayəsində tam mə'nası ilə İran millətinin nicat vericisi hesab olunmaqdadır. Biz Tehrana varid olduqda jandarm və sayır müstəhfizlərin çəngindən xilas olub özlərini bizə yaxınlaşdıran əşxasın simasında və hərəkətində bunu aşkar surətdə görürdük. Təyyarə meydanına gəlib çıxmağa müvəffəq olan Tehran azadixahlarının şuarları bizim ruhumuzu titrədirdi:

*Siz bizə nicat verdiz, siz İran xalıqını əsarətdən xilas etdiz, amandı iştibah etməyin! Azadlığımız sizin düzgün hərəkət etməyinizə bağlıdır.*
*Yaşasın Azərbaycanın qəhrəman xalqı!*
*Yaşasın azadlığımızın məş'əldarı olan Azərbaycan azadixahları!*

Bu şuarlar Azərbaycan xalqının başlarının ucalmasına, onların tək özünü idarə etmək deyil, bəlkə, bütün İran xalqına nicat vermək iste'dadına malik olduğunu bir daha isbat etmiş oldu. Hələ nehzətimiz başlanan gündən Tehran və sayir İran şəhərlərində müntəşir olan ruznamələrin «Gəlin bizə də nicat verin!» şuarlarını biz hənuz unutmamışıq. Mən mütə'ssifəm burada İran zəmamdarlarından birinin sözünü deməyə məcbur oluram. Danışığımızın ciddi və şirin bir yerində söz Azərbaycan valısının tə'yini ətrafına gəldi. Aqayi zəmamdar «sizdəki valı olabilən bir adam yoxdur» dedi. Mənim ona verdiyim cavabı yəqin edirəm siz çox gözəl hiss edirsiz, onu təkərar etməyə ehtiyac yoxdur. Bununla istəyirəm Tehran hökümətinin nə kimi adamlar əlində olduğunu göstərəm və istəyirəm biləsiz ki, şayəd o zəmamdar səhvən bu sözü deməmişdir, onun düşüncəsi və anlağı bundan yuxarı ola bilməz. Tehran cəmaəti isə bu kimi zəmamdarları öz başından kənar etməyə qadir deyildir. Bu kimilərin bizə: «siz başladığız böyük işləri yarımçılıq qoyub, gəlin bizim boyunduruğumuzun altına girin»! Deməsi, aya böyük haqqsızlıq deyildir? Çun biz İranın mərkəzi hesab olunurduq, ona görə də əşrəf məxluqatıq, deməsi ən sadə bir insanın ruhunu üsyana vadar etməyə kifayət etməzmi?

Bununla belə məşhur riyazidan və alimin sözünü təkərar edib demək lazımdır ki, «ba vicudi in yer dolanır» yə'ni Azərbaycan

xalqı mütəmməddin, fədakar və layıq bir millətdir, o özünü idarə etdiyi kimi bütün İran xalqının azadlığının ələmdarıdır.

Söz, bizim Tehranilə danışdığımız barəsində idi. Bildigiz kimi Sədr və Həkimi kabinələri kəklik kimi başlarını qara quylayıb dünyadan xəbərləri olmadıqları üçün milli nehzətimizi silah gücü ilə dayandırmaq fikirində idilər. Onların nəzərində Azərbaycan xalqı Zülfqarı, Kor mir Cavad, Əbulqasım Cavan, Əmir Nüsərt və Sadıq Müctehidi kim xalq düşmənlərindən ibarət idi. Ona görə bizim haqq sözlərimizi eşitmək əvəzində onların barmaqı ilə rəqs edib, bizim içərimizdə üsyan tövlid etmək kimi əhməqanə ümid üzərində hərəkət edirdilər. Nəhayət fədailərimizin zərbi şəsti onların arzularını puça çıxardı. Biləxərə Tehran anladı ki, zor ilə Azərbaycan xalqının iradəsini sındırmaq olmaz. Nəhayət ona görə irtica’ ərkanında muxtəsər təzəlzül əmələ gəldi, nəhayət azadixah ünsürlərın köməyi ilə Həkimi hököməti yıxılıb çox az bir əksəriyyətlə irtica’i məclis Qəvamülsəltənə kabinəsini vicuda gətirdi. Qəvamülsəltənə kabinəsi zor və güc siyasətini dəyişdirib sülh yolu ilə cavab verəməli olduğundan onun rəsmi də’vətini qəbul edib Məclisi Milli və Milli Hökümətimizin dəsturu ilə istədiyimizi sülh və müsalimət yolu ilə əldə etmək üçün Tehrana getdik.

Bunu gərək hamı bilsin ki, biz Tehrandan yeni bir şei tələb etmirdik. Çünkü biz istədiyimizi almağa müvəffəq olmuşuq, qarşımızda duran məsələ adamlarımızı qan tökülmədən saxlamaq məsələsidir. Bir də biz istədiklərimizi İran hududunda həyata keçirməyi hədəf qərar verdiyimizi də unutmamışdıq. Bilirsiz ki, hənuz indiyə qədər biz xaricə və cəng vizarətxanaları təşkil etməmişik. Qoşunlarımız xalq qoşunları adlanır. Xalq qoşununun vəzifə və məqsədi rəsmi dövlət qoşunundan tamamilə başqadır, xalq qoşunu daxili əmniyyət və milli azadlığımızı tə’min etmək məqsədi ilə təşkil edilən bir qüvvədir. Pulumuz, baydağımız və ünvanımız isə biləxərə ümum İran əsasındadır, binabərin bu vəz’iyyət uzun müddət dəvam edəbilməzdi, biləxərə gərək mərkəzi hökümət ilə təklifimiz mə’lum olaydı. Bu təklifi müəyyən etmək üçün aqayi Qəvamülsəltənənin sülh əlini rədd etməyib Tehrana getdik, hətta mən özüm şədid məriz olduğuma baxmayaraq məsələnin daha tez həll olunması məqsədi ilə səmimi yoldaşlarımın və təbiblrin tövsiyəsinə baxmayaraq şəxsən aqayi Qəvamın də’vətini qəbul edib heyət ilə bərabər müsafirət etdim. İstər xüsusu görüşlərimizdə, istərsə rəsmi görüşlərdə biz xalqımızın asayiş və sülh yolu ilə ixtilafatı həll etməyə hazır olduğunu söylədik. Aqayi Qəvamülsəltənə və sayir dövlət nümayəndələri ümumiyyətlə bizim fikirimizə müvafiqət izhar edirdilər, lakin əməldə dövlətin 7 maddədən ibarət olan təsvibnaməsindən təcavüz etməyə hazır olmaq istəmirdilər. Siz əlbəttə nümayəndələr heyə'tinin müzakirələr haqqında verdiyi rəsmi e`lamiyyəni eşitmisiz. Bizim gizli siyasətimiz olmadığına görə müzakirənin təfsilini dünyaya e`lam etdik və bildirdik ki, Tehran hököməti bizdən məğlub bir qüvvə kimi qeyd şərtsiz təslim olmaq tələb edir. Bu isə gülünc vəziyət meydana çıxarırdı. Biz dedik vaxtiki dövlət təsvibnaməsi ayeyi asımanı kimi təğyirnapəzirimiş, bu israr ilə bizi Tehrana də’vət etmək nəyə görə idi?

Tehran rəsmi məqamatının sözləri Təbrizdə aqayi Bəyat tərəfindən danışılan sözlərin eyni idi, onlar həmişə olduğu kimi qanun

əsasıdən və usuldan bəhs edib səfsətə ilə mövzunu ört - basdır etməyə çalışırdılar.

Biz əvvəl gün dedik biz diplomat deyilik, vəli qanun əsası və sayir qanunlardan özümüzə görə itila'ımız vardır. Biz indiyə qədər qanun əsasının əsas məsələlərinin məskut qalmasını da bilirik, biz qanun əsasının Rizaxanın diktatorluğu üçün təğyir verilməsindən bixəbər deyilik. Biz İranı bürümüş biqanunluqların sərmənşəini də bilirik, biz Amerikadan gəlməmişik, İranlıyıq və iranda qanunların nə şəkildə icra edildiyindən xəbərimiz vardır. İndi də İranda kimlərin hökümət etdiyini və İran millətinin bu əşxasa olan nəzərini də bilirik. Gəlin sadə danışaq, Azərbaycan xalqı bir gün istibdad əleyhinə qiyam edib qanun əsasını vicuda gətirdi və Milli Hökümət binasını qurdu. Tehran mürtəceləri isə yarım qərn müddətində onu məskut qoyub cürbəcür vasitələr ilə xalqı hakimiyyətdən məhrum etdilər. İndi isə Azərbaycan ikinci hərəkəti ilə o haqqı dırıltmək istəyir, fəqət buna cavab vermək lazımdır. Xalisə yerlərinin bölünməsi və dövlət yerlərinin ğasıblər əlindən alınıb və əkinçilər arasında təqsimini qanun əsası mən' etməmişdir. Qanun xalqın iradəsidir. Azərbaycan kəndlisi artıq öz haqqını almışdır, öz iradəsi ilə bu kəndləri bölmüşdür. Dövlət isə bütün İranı Azərbaycan ilə həmrəng olmaq üçün bu işi bütün əyalət və vilaytlərdə əməli etməlidir.

Biz hətta ixtilafı rəf' etmək üçün böyük güzəştlərə hazır olub dedik: Ancaq bizə imkan verin Azərbaycan xalqı öz əyalət əncüməni vasitəsilə dövlət idarələrinin mə'murlarını və əyalətin valisini dövlətə pişnahad etsin və bunların hökmü mərkəzi dövlət tərəfindən sadır olsun və bunlar sadə bir söz ilə desək Azərbaycanı idarə etsinlər.

Tehran höküməti tək Mələk Mədəni, tək Əmir Nüsərt, tək Samsam Bəxtiyari üçün qayıl olan bu haqqı Azərbaycanlılar üçün qayıl olmaq istəmədi. Qanun əsasiyə muğayir olan idareyi kulli jandarmerini belə bizə qanunu müssisə adlandırıb onun vəhşət tovlid edən nüfuzunu Azərbaycana qaytarmaq istədi. Xalq qoşunlarını adi nizamvəzifə hesab edib onun fərmandehlərini də Tehrandan göndərmək kimi pişnahadları meydana sürdü.

Biz çox gözəl bilirdik ki, Azərbaycan xalqı Şəhrivərin üçündə özlərinin həqiqi simalarını göstərən əfsər paltarı geymiş yalançı pəhləvanlara nə cür baxır və yenə də bilirdik ki, Səttarxan evladı Tehranın tiryəki sərhənglərinin mə'şuqələrinin buqçasını hamama daşımağa artıq təhmmül edə bilməz. Ona görə də onların bu xususda etdikləri pişnahadı rədd edib dedik:

Dövlət tərəfindən bir neçə nəfər Azərbaycana gəlsin, burada məsələ tərəfeynin rizayəti ilə həll edilsin və bir də biz Tehran hökümətinə bildirdik ki, Azərbaycan qoşunu xalq qoşunu və azadlıq qoşunudur. Onu İran xalqının azadlığını məhv etməyə məcbur etmək olmaz. Xalqımız öz qoşununu idarə etməkdən aciz deyildir. Əgər Tehran doğrudan da Azərbaycanlını İranlı bilirsə bizim pişnahad etdiyimiz əşxası qoşunun fərmandehliyinə tə’yin etsin. Bu isə onların xoşuna gələn deyil idi, onlar

İranı Terandan ibarət bilir və İranda hakimiyyəti fəqət beş uç nəfərə münhəsir hesab edirlər.

Bir də bizə fərmandehi külli qüvanın və bə’zi qeir məsul məqamatın bu işə razı olabilməyəcəyini andırmaq istədilər.

Biz fərmandehi külli qüva məsələsini məşrutə əsası mucıbıncə təfsir edirik. Bizcə fərmandehi külli qüva fəqət Məclisi Şurai Millinin xaricilərə e’lan etmək istədiyi hərbi fərmanı imza edər. Onun cari işlərə qarışması ğeyriməsul olduğuna görə azadlıq və məşrutə qanununa muğayirdir.

Rizaxan həmin fərmandehlik ixtiyarından istifadə edib İranda azadlığın rişəsini kəsdi və İranı bildiyimiz kimi fəlakətlərə sövq elədi. İndi də fərmandehi külli qüvayi mütləq yaratmaq İran xalqının, İran azadlığının xilafınadır və qeyri məsul məqamlar əgər bu işdə israr edərlər isə İranda böyük hadisələr vicuda gələr və mə'lum deyil bu tamah qeyriməsul məqamatın nəf'inə tamam ola bilə.

Zahirdə sadə görunən saziş məsələsini bu nəhv ilə səfsətəyə döndərib bizi onbeş gün Tehranda mə'təl etdikdən sonra nəticəsiz Azərbaycana qayıtmağa məcbur etdilər.

Sözün qısası budur ki, Tehran heyə'ti hakiməsi bizim başladığımız böyük işləri tamamilə ortadan aparıb, beş ay bundan əvvəlki kimi şəhərlərimizi köhnə qəbristanlara, zülüm və fişardan taza xilas olmuş xalqımızı, jandarmlar, oğru, müxənnəs və cani mə’murların ayaqları altına salmağa çalışırlar. Sözün canı da burasındadır ki, qanun əsası və sayir qanunları da bədbəxtanə bu məqsəd üçün alət qərar vermişdilər.

Bir də məsələ tək Azərbaycan məsələsi deyildir, söz bütün İranda azadlıq, demokratlıq usullunun yayılması üstündədir. Tehran heyə't hakiməsini və Tehran böyük feodal və yer sahiblərini qorxuya salan da burasıdır. Onlar qanun əsası ünvanı altında bütün xalqın hüququnu məhv etməyə çalışırlar.

Biz çox sadə adamlarıq, lakin sadəliyimiz o qədər deyildir ki, kasanın altında gizlədilən yarım kasanı görə bilməyək. Biz diplomat deyilik, lakin xoruzun quyruğunu görməkdən iczimiz yoxdur.

Də’va hamısı molla Nəsrəddinin yorğanı, yə’ni kəndlinin aldığı topraq və xalqın aldığı hakimiyyət üstündədir.

Bunu irtica’ ünsürlərinin boşqablarının dibini yalayan Tehran irtıca'i mətbu’atının zuvza çəkməsinə baxmayaraq bütün İran xalqı düşünüb anlamışdır, söz Azərbaycanın İrandan ayrılması barəsində deyildir, bunu iddi'a edən də yoxdur. Biz hərgiz bu iddi'anı irəli sürməmişik. Söz məşrutənin, demokrasi usulunun İranda icra edilməsi və bizim başladığımız böyük islahat proqramının bütün məmləkət hüdudunda həyata keçirilməsi üstündədir...

Bizim artıq ayrı yolumuz yoxdur, başladığımız islahatı poza bilənərik,Tehran isə bütün İran xalqının haqqı hakimiyyətini təsdiq edib məmləkəti fəlakət və hərc - mərcdən nicat vermək yolunda ciddi qədəmlər götürməlidir.

Aqayi Qəvamülsəltənə gərək bilsin ki, dünya dəyişib, hətta İranda yeni nəsil vicuda gəlmişdir.

Bu nəsili yarım qərn bundan irəliki tərzitəfəkkür və üsul ilə idarə etmək olmaz. Bir də hiss olunurdu ki, heyə'ti vüzəra arasında təvafüqi nəzər yoxdur. Əslən vəzirlərin əksəri təsadüfi adamlardır ki, şəxsi aqayi Qəvamülsəltənə xüsusu və dustanə münasıbat mülahizəsi ilə kabinəyə də'vət etmişdir.

Bunların da hər birisinin başı bir yerə bağlıdır, hətta şayı'at var idi ki, bə'zi taza ərsəyə gəlmiş «qoca» dərbar xanımlarının da dövlət ə'zasına tə'sirləri vardır.

Tehran vaqi'ən məxuf, vaqi'ən xətərnak, vaqi'ən İranı fəlakətə və İran xalqını aclığa, beçaralığa, gədalığa sövq edən bir mərkəz fəsaddır.

Biz ciddən sülh və sazişə və İranın təmamiyyəti ərzisinə talıb və tərəfdar olduğumuz halda Tehrandan bir nicat gözələyə bilmirik. Aqayi Qəvamülsəltənənin kabinəsi dəvamlı bir kabinə o vaxt ola bilərdi ki, Azərbaycan xalqı ilə kənara gələydi, mütə'ssifanə bu günə qədər bu xüsusda ciddi bir qədəm götürməyə müvvəffəq ola bilməmişdir.

Bizim husni zənn və fədakarlığımız, kabinə üçün böyük bir şans idi ki, mutə'ssifanə aqayi Qəvam ondan hənuz istifadə edə bilmir.

İstəyirəm sizi inandıram ki, kabinə ə'zasından bə'zisinin xüsusu şəxsi nəzərləri aqayi Qəvamülsəltənənin rəftarında belə dərin tə'sir bağışlamışdır. Məsələn şayəd vəzirlərdən bir parası bizdə tiryək qanununun icrası səbəbilə Azərbaycanlılara qanlı və ğəddar duşmən kəsilmiş onun nəzəri aqayi Qəvamülsəltənənin rəftarında münə'kis olmuşdur.

Mütə'ssifanə aqayi Qəvamülsəltənənin Azərbaycan məsələsi haqqında sadır etdiyi iblağiyyəni təcziyə etməyə fürsət yoxdur. Bu rəsmi sənəddə bizi heyrətə salan nəft və intixabat mövzuunun ortalığa çəkilməsi və həqiqətdə onların girov saxlanılmasıdır.

Əvvələn nəft məsələsi sadə iqtisadi və xarici siyasətə aid bir məsələdir. Bunu Azərbaycan məsələsinə qarışdırmaq heç bir məntiq ilə düz gəlmir.

Biləxərə Azərbaycan məsələsinin daxili bir məsələ olduğunu hətta aqayi Qəvamülsəltənə özü də təsdiq və e'lan etmişdir.

Intixabatın e'lanı və onun ümum İranda azad bir surətdə əmələ gələməsinə kimsə mane' deyildir. Məgər inki təsəvvür edək dövlət keçmiş səhnələri təkərar etmək istəyir.

Məsələn istəyir ki, Azərbaycanda hər yerdə olduğu kimi pul, güc, təhdid və tətmi' ilə bir iddə oğru, xayin, mürtəce millət nümaindəsi naminə məclis kürsulərini işğal etsinlər.

Əgər məqsəd bu isə Azərbaycanlı belə bir məclisə nifrət və inzicar ilə baxar və aqai Qəvamın İttihadi Cəmahiri Şorəvi müqabili də etdiyi tə'əhhüdə həmin bu məclisin böyük əngəl olabilməsini hətta onun özü də inkar edə bilməz. Bunların hamısını nəzrə alaraq biz dövlətə məsləhət görürük ki, Azərbaycan xalqı ilə sadə və səmimi surətdə danışığa başlayıb onlardan o güzəştləri tələb etməsin ki, onun qəbulu bu xalq üçün ölüm - dirim məsələsidir. Buna Azərbaycanlı heç bir vəchilə hazır ola bilməz və olmayacaqdır.

Bunların hamısı ilə bərabər, işin sülh yolu ilə həll edilməsindən hənuz mə'yus deyilik və bizim tərəfimizdən indiki aramişi pozmaq üçün qədəm götürülməyəcəkdir. Hətta sərhədlərimizə göndərilən sərbaz və jandarm dəstələri də bizi təhrik edəbilməz. Qorxmaq məsələsinə gəldikdə güman edirəm bütün Tehran mürtəceləri və kor mir Cavad və Emir Nüsərt və sayir fərarı xalq düşmənləri məsələn, Zülfqarı ilə bərabər bu işi təcrübədən keçirmişlərdir. Biz Həkimi və Sədr kabinəsi zamanı dediyimiz sözü yenə də təkərar edirik:

Azərbaicana silah ilə gəlmək od ilə oynamaq deməkdir! Biz aqayi Qəvamı ondan aqıl bilirik ki, öz əlilə bu həriqi müştə'il etməyə iqdam etsin, əgər bu iş qabağa gələrsə xalqımız, elimiz və cəmaətimiz, arvadlı - kişili bir təni vahid kimi ayağa qalxacaq və torpağımıza uzanan xayin və murdar əlləri həmişəlik qət' edəcəkdir!

*Yaşasın Azərbaycan xalqının milli birliyi!*
*Yaşasın bu birliyi vucuda gətirən firqəmiz!*
*Yaşasın İran xalqlarının üzünə azadlıq qapusu açan qəhrəman fədai və rəşid qoşunlarımız!*

**(Azərbaycan» ruznaməsi nümrə 199. İkinci dövrə, 4 şənbə günü 25 urdibehişt, 1325-ci il).**